AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

*Əlyazması hüququnda*

ŞƏHRİYAR AĞAMİRZƏ OĞLU MƏMMƏDOV

# AZƏRBAYCAN RESPUBLİKASININ ABŞ-la MÜNASİBƏTLƏRİ: SİYASİ TƏHLİL

**İxtisas: 5901.01- "Beynəlxalq münasibətlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2018**

İş Xəzər Universitetinin “Siyasi elm və beynəlxalq münasibətlər” departamentində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əlikram Mirhəsən oğlu Tağıyev**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər**: **Vəsilə Cümşüd qızı Hacıyeva**
siyasi elmlər üzrə elmlər doktoru, professor

**Cahangir Xanoğlan oğlu Cahangirli**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universitetinin “Diplomatiya və müasir inteqrasiya prosesləri” kafedrası**

Müdafiə “___”___________2018-ci il tarixində saat ________-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” ______________ 2018-ci il tarixində göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə**
**fəlsəfə doktoru, dosent** **S.İ.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı:** XX əsrin 90-cı illərində SSRİ-nin süqutu ilə dünyanın siyasi xəritəsində formalaşmış konfiqurasiyalar yeni beynəlxalq münasibətlər sistemini yaratdı. Bu isə bütün dünyada, eləcə də müxtəlif regionlarda baş verən siyasi proseslərə həlledici təsir edərək, yeni faktorlar və güc mənbələri formalaşdırdı. Təbii ki, bu proses Cənubi Qafqaz məkanından da yan ötməyib, regionun geosiyasi vəziyyətinə təsir etdi. Cənubi Qafqaz regionu Rusiya, ABŞ kimi dünya siyasətinin nəhəng dövlətlərinin, eləcə də İran, Türkiyə kimi regional dövlətlərin maraq dairəsinə daxil olaraq mühüm siyasi proseslərin cərəyan etdiyi məkana çevrildi. Həmin kontekstdə Cənubi Qafqaza, eləcə də Azərbaycan Respublikasına münasibətdə ABŞ-ın strateji əhəmiyyəti və rolu artaraq, bu regionda həlledici dövlətə çevrilməyə başladı. 1997-ci ildə Xəzər regionunun ABŞ-ın milli maraqları sisteminə daxil edilməsi Azərbaycanın, eləcə də Qafqazın Amerika üçün əhəmiyyətini bir daha artırdı. ABŞ-ın dünya siyasətinin aparıcı dövləti olması və beynəlxalq təhlükəsizliyin formalaşmasındakı rolu və eləcə də iqtisadi, hərbi və digər göstəricilərinə görə fövqəldövlət olması baxımından Azərbaycan üçün onunla qarşılıqlı münasibətlərin qurulması və etibarlı tərəfdaşına çevrilməsi məsələsi həmin dövr üçün çeviklik tələb edən siyasət idi.

Azərbaycan Respublikası siyasi sabitliyə, iqtisadi inkişafa nail olmaq üçün Qarabağ münaqişəsinin ədalətli həllində ABŞ kimi qüdrətli dövlət simasında etibarlı tərəfdaşa ehtiyac duyurdu. Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək: “Bunların hamısı Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsi və əlaqələrimizin inkişaf etməsi üçündür. Bunların içərisində ən əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsində Minsk qrupunun həmsədri kimi Amerika Birləşmiş Ştatlarının iştirakı barəsində olacaqdır. Bu məsələ bizim danışıqlarımızda mərkəzi yer tutur və tutacaqdır”[1].

Cənubi Qafqaz regionunun geosiyasi cəhətdən əlverişli məkanda yerləşməsi, onu dünyanın aparıcı dövlətlərindən biri olan ABŞ-ın milli maraqlar kontekstində özünəməxsus amillərdən biri edir. Bu mənada özünün enerji, təbii, iqtisadi və s. potensialı ilə regionun əsas dövləti

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar./ Buraxılışa məsul R.Mehdiyev və H.Orucov. Bakı: Azərbaycan, 1997, I kitab, iyun, 1993- may, 1994, , 1997. s.54

olan Azərbaycan Respublikası, sözsüz ki, ABŞ-ın xarici siyasət xəttində əsas yerlərdən birini tutur. Dissertasiyanın aktuallığını şərtləndirən ən əsas amil onunla şərh olunmalıdır ki, XX əsrin 90-cı illərində dünyada yaranmış güclərin kontekstində ABŞ və Azərbayan arasındakı mühüm siyasi və geostrateji münasibətlərin ilkin formatını elmi təhlilə cəlb etmək, bunların fonunda baş vermiş hadisələrin mahiyyətinin milli maraqlarımıza da təsir imkanlarını araşdırmaq zərurəti yaratmışdır.

Bu gün dünyaya məlumdur ki, Azərbaycan antiterror fəaliyyətində yaxından iştirak edir və iqtisadi tərəf-müqabil kimi yeni enerji layihələrinin formalaşması və reallaşdırılmasında böyük rol oynayır. Prezident İlham Əliyevin sözləri ilə desək, "ABŞ–Azərbaycan münasibətlərinin artıq 25 illik tarixi var. Bu münasibətlər həmişə sıx, səmimi olmuşdur, indi isə strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə çatmışdır. Aramızda fəal siyasi dialoq mövcuddur" [2]. Qeyd olunanları – mövzunun aktuallığını aşağıdakı müddəalarla ifadə etmək olar:

- ABŞ dünyada güclü dövlət olaraq beynəlxalq münasibətlərdə mühüm rol oynayır və onunla münasibətlərin qurulması vacib məsələdir;
- Azərbaycanın iqtisadi, siyasi, hərbi təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından bu dövlətlə əlaqələrin qurulması və münasibətlərin inkişaf etdirilməsi mexanizmlərinin öyrənilməsi böyük önəm kəsb edir;
- Enerji layihələrinin reallaşdırılması və həyata keçirilməsində ABŞ-ın rolunun öyrənilməsi vacibdir;
- Qərbin enerji təhlükəsizliyinin təmin edilməsində öz layiqli yerinin tutulması baxımından Amerikanın siyasi dəstəyini tədqiq etmək;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində ABŞ amilinin və onun təsir imkanlarının öyrənilməsi və ümumiləşdirilmiş nəticələrə gəlmək;
- Ölkədə demokratik islahatların daha da dərinləşdirilməsi və güclü demokratik dövlətin formalaşdırılmasında ABŞ-ın demokratik təcrübəsinin əsas məqamını nəzərdən keçirmək;
- Beynəlxalq münasibətlər sistemində ABŞ-Azərbayan münasibətlərinin ümumi təhlilini vermək, mövcud nəticələrin əhəmiyyətini qeyd etmək.

---

[2] Əliyev İlham Bakıda "Gələcəyə baxış" Azərbaycan-ABŞ Forumunun açılışında iştirak etmişdir./president.az/articles/8268

**Problemin işlənmə dərəcəsi.** Tədqiqat mövzusunun müxtəlif aspektlərinə həsr olunmuş elmi əsərləri bir neçə qrupda təqdim etmək olar. İkitərəfli münasibətlərin dinamikasının öyrənilməsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəşr etdirdiyi "Azərbaycanın Xarici Siyasəti. Sənədlər məcmuəsi" böyük əhəmiyyət kəsb edir. Burada Azərbaycan diplomatik nümayəndəliyinin fəaliyyəti əks olunur ki, onlar vasitəsilə Azərbaycanın xarici siyasi fəaliyyəti dərindən araşdırılmışdır.

Bir qrup mənbələrə amerikan və digər Qərb ekspertlərinin tədqiqatlarını aid etmək olar ki, onların sırasına ABŞ-ın "ağıl mərkəzləri"nin əməkdaşlarının, görkəmli politoloqlarının əsərləri aid edilir. Bu mərkəzlərdən Con Hopkins Universitetində Mərkəzi Asiya və Qafqaz İnstitutu, Vaşinqtonda Xarici Siyasi Araşdırmalar İnstitutu, Kolumbiya Universitetində Harriman İnstitutunun apardığı araşdırmaları göstərmək olar[3]. Bu araşdırmalar və materiallar ABŞ-ın Azərbaycan Respublikasına münasibətdə apardığı siyasətin motivlərinin, məqsəd və mahiyyətinin üzə çıxarılmasında böyük əhəmiyyət kəsb edir. Həmçinin Mərkəzi Asiya və Qafqaz Tədqiqatları İnstitutunun, Qafqaz Strateji Tədqiqi İnstitutunun apardığı tədqiqatlar dərindən araşdırılmış və onların nəşr etdirdiyi "Mərkəzi Asiya və Qafqaz", "Mərkəzi Avrasiya" jurnallarının materialları öyrənilmişdir[4].

İkinci qrupa rus tədqiqatçılarının əsərləri aid edilir. Bu tədqiqatlar bir neçə istiqamətlərdə öyrənilmiş və sistemləşdirilmişdir:

- ABŞ-ın xarici siyasətinin ümumi təhlili;
- ABŞ-ın Qafqaz siyasətinin tədqiqi;
- ABŞ-ın Azərbaycan siyasəti.

ABŞ-ın xarici siyasətini ümumi təhlil edən K.Hacıyev, P.Çıqankov, A.B.Kopılov, A.Utkin və başqa tədqiqatçıların adlarını çəkmək olar[5]. ABŞ-ın Qafqaz siyasətinə isə B.B.Deqoyev, S. Markedonov,

---

[3] Azərbaycanın Xarici Siyasəti. Sənədlər məcmuəsi. Bakı: Garisma MMC Nəşr evi, 2009, I-II hissələr, 816 s.

[4] Коэн. А. США. Страны Центральной Азии и Кавказа: проблемы и перспективы развития. Москва: РИСИ, 2001, т.1, с.106

[5] Гаджиев К. Геополитика. Москва: Издательство Юрайт, 2015, 466 с; Копылов А. Политика национальной безопасности США в 90-е годы, содержание и процесс реализации. Монография -Москва: ВАГШ, 1999, 345 с; Уткин А. Американская империя. Москва: ЭКСМО «Алгоритм», 2003, 736 с; Цыганков П. Теория международных отношений. Москва: Гардарики, 2003, 590 с.

[6] Дегоев В.В. Большая игра на Кавказе: история и современность. Статьи, очерки,

B.B.Karakin, V.N.Panin və başqa tədqiqatçılar öz əsərlərini həsr etmişlər[6]. Bu tədqiqatların ümumi cəhəti ondan ibarətdir ki, onlar ABŞ-ın Qafqaz siyasətinə, Qafqaz regionu dövlətlərinin ABŞ-la yaxınlaşması fəaliyyətinə bir qədər tənqidi yanaşır və Rusiyanın Qafqaz regionundakı rolunun artırılması istiqamətindəki fəaliyyətinin aktivləşdirilməsini irəli sürürlər.

Qeyd etmək lazımdır ki, ABŞ-ın Azərbaycan siyasəti həm rus, həm də digər xarici ədəbiyyatlarda ABŞ-ın Qafqaz siyasəti fonunda öyrənilir və onu ayrıca araşdırmırlar. Amerika xarici siyasəti kontekstində Qafqaz siyasətinin araşdırılmasında C.Kornell, A.Kuley, B.Şaffer və digər tədqiqatçıların adlarını çəkmək olar[7]. Demək lazımdır ki, bu tədqiqatçılar ABŞ-ın ümumi xarici siyasətini araşdıraraq burada Qafqaz siyasətinin də rolunu tədqiq etmişlər. Azərbaycan, ümumilikdə Qafqaz siyasətinin tədqiqində Z.Bzejinskinin rolu mühümdür[8]. O özünün "Böyük şahmat taxtası" əsərində, eləcə də nəşr etdirdiyi məqalələrində Azərbaycana böyük önəm vermişdir[9].Ümumilikdə Azərbaycanı Z.Bzejinski həm geosiyasi, həm də geoiqtisadi dövlət hesab edərək onun

---

эссе / 2-е изд, расш. и дополн. Москва: Русская панорама, 2003. 512 с; Карякин В.В. Военная политика и стратегия США в геополитической динамике современного мира. – Москва: Граница, 2014,367 с; Панин В.Н., Затонский Ю.И. Современная политика США на Кавказе // Вестник ПГЛУ. 2006, №1, с. 58-62.

[7] Cornell S. US Engagement in the Caucasus: Changing Gears // Helsinki Monitor. 2005. №2. p. 111-119; Nichol J. Armenia, Azerbaijan and Georgia: Political Developments and Implications for U.S. Interests // Congressional Research Service. – Washington D.C., April 15, 2011, 49 p;_Philips D. Peacebuilding and Business: -£ostenng. 'Commerciar Contact Between Georgians an Abkhaz. - NY: National Committee on American Foreign Policy, June 2010. - 26 p.

[8] Бжезинский З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы. (Перевод с англ. О.Ю. Уральской. Москва: Международные отношения, 1998, 456 с.

[5] Бжезинский З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы. (Перевод с англ. О.Ю. Уральской. Москва: Международные отношения, 1998, 456 с.

[10] Coben A. The new great game: pipeline politics in Eurasia. Caspian Grossroads, Washington,volume 2, №4, 1997,p.21-32; Golarusso.J. The etnik thearts to Caucasian pipelines. Washington, volume 2, № 4, 1997,p.17-24

müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsini vacib sayır, Xəzər dənizi və Orta Asiyaya Amerika kapitalının cəlb edilməsinin zəruriliyini qeyd edirdi. Bu əsərlərin təhlili imkan vermişdir ki, hər iki ölkənin strateji əməkdaşlığından irəli gələn nəticələrə dair əsaslı elmi qənaətə gələk.

Azərbaycan neftinin nəqlinə, Qafqazın geosiyasi həyatında Azərbaycanın roluna dair yazan müəlliflərin əksəriyyəti Qarabağ münaqişəsinin həlli istiqamətində işlərin aparılmasını da vacib hesab etmişlər. Bu müəlliflərə A.Kobeni, C.Klarussonu misal göstərmək olar[10].

Baxılan problemin üçüncü qrup tədqiqatçıları sırasına Azərbaycan alimləri aid edilə bilər. Azərbaycan müəllifləri tərəfindən ABŞ-Azərbaycan münasibətləri tarixi, siyasi, iqtisadi aspektlərdən araşdırılmışdır. ABŞ-Azərbaycan münasibətlərinin tarixi aspektlərinin araşdırılmasında Y.Mahmudov, N.Nəsibzadə, M.Qasımlı, İ.Musayev və digərlərinin adlarını çəkmək olar. ABŞ-Azərbaycan münasibətlərinin siyasi aspektlərinin öyrənilməsi və onun politoloji qiymətləndirilməsi R.Mehdiyev, N.Məmmədov, H.Paşayev, Ə.Həsənov, Aynur Ə. Bəşirli, A.Bayramova və başqa görkəmli tədqiqatçılar tərəfindən aparılmışdır.

Akademik R.Mehdiyev özünün "Demokratiya yolunda: irs haqqında düşünərkən", "XXI əsrdə milli dövlətçilik" adlı bu və digər fundamental əsərlərində Azərbaycanın demokratiya yolunda tutduğu qətiyyətli mövqeyi, demokratik islahatları məzmunlu təhlil etmiş, dünya dövlətləri ilə, o cümlədən, ABŞ-la münasibətləri hərtərəfli izah etmişdir[11] [97; 98].

Akademik Y.Mahmudovun "Azərbaycan diplomatiyası tarixi" kitabı Azərbaycan dövlətçiliyi tarixində xarici siyasət təcrübəsinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edərək,ABŞ və Avropa

---

[11] Mehdiyev R. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: «Şərq-Qərb», 2008,792 s.; Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: XX-YNE, 2003, 240 s.

[12] Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: «Təhsil», 2006, 416 s.

[13] Həsənov Ə. Azərbaycan geosiyasəti.Bakı: Zərdabi LTD MMC, 2016, 1056 s.

[14] Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə Bakı: «Mütərcim», 2015, 664 s.; Qasımov M. Azərbaycanın xarici siyasəti (Konsepsiya məsələləri). Bakı: «Mütərcim», 1997, 124 s.; Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər), Bakı: «Gənclik», 1996,135 s.

dövlətləri ilə münasibətdə tarixi reallıqları nəzərə almaq baxımından diqqəti cəlb edir[12].

Azərbaycan tədqiqatçısı prof. Ə.Həsənovun özünün əsərlərində ABŞ–Azərbaycan münasibətlərin siyasi dinamikasını izləmək mümkündür. Müəllifin ABŞ–Azərbaycan siyasi münasibətlərinin tədqiqinə həsr olunmuş monoqrafiyasında ABŞ-la münasibətlərin tarixi, iki dövlət arasındakı münasibətlərin inkişafında Ümummilli lider Heydər Əliyevin rolu, Azərbaycan xarici siyasətində ABŞ-ın yeri, müstəqilliyin ilk illərində iqtidarın buraxdığı səhvlər, erməni lobbisinin Azərbaycana qarşı pozucu fəaliyyəti öz əksini tapmışdır[13]. Müəllifin " Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996)" əsərində ABŞ – Azərbaycan münasibətlərinin mahiyyəti, eləcə də siyasi inkişaf xüsusiyyətləri öz əksini tapır . Bu əsərin ən əlamətdar cəhəti isə budur ki, burada Avropa dövlətləri, eləcə də ABŞ-la münasibətlərə dair hüquqi-normativ sənədlər toplusu bir kompleks halında araşdırılır.

Azərbaycan alimi, müxbir üzv M.Qasımlının apardığı tədqiqat işləri həm tarixi, həm də siyasi aspektləri əhatə edərək fundamental xarakter daşıyır. Onun Azərbaycanın beynəlxalq münasibətlər sistemində oynadığı rol, onun ABŞ-la Avropa, postsovet ölkələri, həm də Şərq ölkələri ilə münasibətləri araşdırılır[14].

Tədqiqatçı-alim prof.Hafiz Paşayevin araşdırmaları isə daha çox diplomatik nümayəndəliklərin ABŞ-dakı fəaliyyətinə, xarici siyasətdə əldə olunan nəticələrin təhlilinə yönəlmiş və Heydər Əliyevin xarici siyasi fəaliyyətində ABŞ-la olan əlaqələrin möhkəmləndirilməsinin üzə çıxarılması istiqamətindədir[15].

Digər tədqiqatçı-alim prof.Novruz Məmmədovun "Xarici siyasət: Reallıq və gələcəyə baxış" əsərində ABŞ–Azərbaycan münasi-

---

[15] Paşayev H. Bir səfirin manifesti. Bakı: «Şərq-Qərb», 2007, 267 s.; Paşayev H. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri. Azərbaycan Marketinq cəmiyyəti. Bakı, 2008, 339 s.

[16] Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: «Qanun» nəşriyyatı, 2013, 264 s.

[17] Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər), Bakı: «Elm», 1998, 289 s.

[18] İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2001, 152 s.

bətlərinin dialektikası verilir. Burada Azərbaycanın xarici siyasətində ABŞ-ın rolu və önəmi qeyd olunur, həmçinin iki dövlət arasındakı qarşılıqlı münasibətlərin gələcək perspektivləri göstərilir[16].

Azərbaycan alimi prof. E.Nəsirov "Azərbaycan Respublikası – ABŞ münasibətləri (1991-1997-ci illər)" əsərində ölkəmizin ABŞ-ın strateji maraqları dairəsinə daxil olduğunu sübut edir, ticarət-iqtisadi və humanitar sahələrdə ikitərəfli əlaqələrin yaranması tarixini ətraflı araşdırır, qarşılıqlı münasibətlərin inkişaf perspektivlərini tədqiq edir[17]. Digər tədqiqatçı-alim Fizuli İsmayılovun "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ABŞ-ın qlobal siyasəti kontekstində" adlı monoqrafiyasında ABŞ-ın Qafqaza və Azərbaycana olan münasibətinin ilkin və sonrakı mərhələlərindəki mövqeyi və bu mövqedəki dəyişikliklərin mahiyyətinin real təhlilini vermişdir[18].

Azərbaycan tədqiqatçısı Aynur Ə.Bəşirli isə mətbuat səhifələrində, əsasən də ABŞ mediası müstəvisində ABŞ–Azərbaycan münasibətlərini araşdırmışdır. Əsərin ən mühüm və diqqəti cəlb edən xüsusiyyəti budur ki, burada ABŞ-la əlaqələrdə Azərbaycan Respublikasının təkcə iqtisadi deyil, geosiyasi tərəfdaş kimi rolu da araşdırılmışdır[19] [59].

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikası-ABŞ münasibətləri və onların siyasi aspektləri, predmetini isə Azərbaycan Respublikasına yönəlmiş ABŞ xarici siyasətinin əsas istiqamətləri, prioritetləri və başlıca milli maraqları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi ABŞ-ın Azərbaycan Respublikasına münasibətdə yürütdüyü siyasəti araşdırmaq, bu siyasətin əsas mexanizmlərini və Azərbaycanın regional və dünya siyasətindəki rolunu, xarici siyasət kursunda ABŞ-ın yerini və rolunu araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- ABŞ-ın Cənubi Qafqaza, eləcə də Azərbaycan Respublikasına yönəlmiş xarici siyasət konsepsiyaları və doktrinalarını öyrənmək;

---

[19] Bəşirli A.Ə. Azad Mətbuat çərçivəsində. "The New York Times", Azərbaycandan Nə? Nə zaman? Necə? Monoqrafiya – Bakı: «Nurlar», 2007, 224 s.

- ABŞ-ın Qafqaz regionunda geosiyasi maraqlarını müəyyənləşdirmək;

- XX ərin sonu XXI əsrin əvvəlində Azərbaycan Respublikasına münasibətdə Amerika siyasətinin formalaşması xüsusiyyətlərini üzə çıxartmaq;

- Müasir dövrdə ABŞ-Azərbaycan münasibətlərinin siyasi-diplomatik istiqamətlərini müəyyənləşdirmək;

- ABŞ-ın Azərbaycan Respublikasına münasibətdə iqtisadi və hərbi texniki siyasətini öyrənmək;

- ABŞ xarici siyasətində Azərbaycan Respublikasının yerini və rolunu tədqiq etmək;

- ABŞ-la Azərbaycan Respublikası arasında münasibətlərin perspektivlərini müəyyənləşdirmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri bazasını problemlə bağlı mövcud fundamental əsərlərdə öz əksini tapmış nəzəri müddəalar, bu sahədə Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqlərində irəli sürülmüş konseptual ideya və fikirlər təşkil edir. Dissertasiyada məntiqi tarixilik, müqayisəli təhlil metodlarından istifadə edilmiş, eyni zamanda mövzu araşdırılarkən həm nəzəri, həm də empirik idrak metodlarına istinad olunmuşdur. Siyasi proseslərin məzmununun tədqiqi komparativizm metodu, məntiqi-dialektik təhlil, sistemli yanaşma prinsipləri əsasında aparılmışdır.

**Tədqiqatın mənbəşünaslıq bazasını** Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitq, məruzə və çıxışlarından ibarət olan çoxcildli nəşrlər, rəsmi materiallar, həmçinin bu problematika üzrə araşdırmalar aparan tədqiqatçıların əsərləri təşkil edir. Bu materiallar Azərbaycan-ABŞ münasibətlərinin yaranması, formalaşması və inkişafını dərindən izləməyə şərait yaratmış və eləcə də iki dövlət arasındakı münasibətləri obyektiv şəkildə qiymətləndirməyə imkan vermişdir.

Dissertasiyada qarşıya qoyulan problemin əhatəli öyrənilməsində rus və ingilis mənbələrinin təqdim etdiyi çoxsaylı ədəbiyyatlar daxildir. Onlar ətraflı şəkildə araşdırılmış, sistemləşdirilərək müqayisəli və tənqidi yanaşma metodu ilə elmi dövriyyəyə gətirilmişdir. Bununla yanaşı, dissertasiya işində rəsmi veb-saytlardakı materiallardan, dövlətimizin ABŞ-la əməkdaşlığını əks etdirən rəsmi sənədlər, dövlət və hökumət başçılarının KİV-də verdiyi müsahibələr, çıxışlar, bəyanatlar daxildir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi ilk

növbədə onun predmetindən, məqsəd və vəzifələrindən irəli gəlir. Dissertasiya işində sistemli şəkildə Azərbaycan Respublikasının ABŞ-la münasibətlərinin siyasi təhlilinə müraciət edilir, həmin münasibətlərin siyasi təhlilinin spesifikliyi politoloji müstəvidə öyrənilir və bu əsasda Azərbaycan Respublukası-ABŞ münasibətlərinin inkişafının və əlaqələrinin genişləndirilməsinin əsas məqam və istiqamətləri göstərilir, konkret təklif və tövsiyələr irəli sürülür. Problemin hərtərəfli qoyuluşu ilə müəyyən olunan elmi yenilik aşağıdakı müddəalarda öz əksini tapır:

- Azərbaycan Respublikası ilə ABŞ arasındakı münasibətlərin siyasi aspekti kompleks və sistemli şəkildə təhlil edilmiş, mühüm cəhətlər göstərilmişdir;
- ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində Azərbaycan Respublikasının yeri və əhəmiyyəti; əsas strateji hədəflər və istiqamətlər ümumiləşdirilərək işıqlandırılıb;
- Azərbaycan Respublikası-ABŞ münasibətlərinin müasir siyasi dinamikası qeyd olunmuş, həmin dövlətlərin strategiyasının əsas istiqamətləri elmi cəhətdən şərh edilmiş və işin nəticə və tövsiyələrində bu münasibətlərin təcrübəsi ümumiləşdirilmişdir;
- Azərbaycan Rspublikasının milli maraqları çərçivəsində ABŞ-la münasibətlərin doktrinal və konseptual əsasları vurğulanmış və mühüm məsələlər qeyd olunmuşdur;
- XXI əsrdə Azərbaycan- ABŞ Respublikası münasibətlərinin əsas gedişatı şərh edilmiş, mühüm daxili və xarici siyasi amillər xarakterizə olunmuş, inkişafın əsas perspektiv istiqamətləri göstərilmişdir.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın materialları və nəticələrindən siyasi elmin müvafiq fənlərinin tədrisində, yeni dərsliklərin, dərs vəsaitlərinin, metodik vəsaitlərin yazılmasında, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində, beynəlxalq münasibətlər fakültələrində və mütəxəssislərin elmi-praktik fəaliyyətlərində, habelə xarici siyasət, geosiyasət, dünya siyasəti problemlərinin öyrənilməsi və bu sahədə araşdırmalar aparan tədqiqatçılar tərəfindən mənbə kimi istifadə edilə bilər. Dissertasiyanın əsas müddəaları və nəticələrindən ABŞ-ın Cənubi Qafqaz, eləcə də Azərbaycan Respublikasına münasibətdə yürütdüyü xarici siyasətinin proqnozlaşdırılmasında istifadə edilə bilər ki, bu da Azərbaycan Respublikasının xarici siyasətinin tədqiqində praktik əhəmiyyət kəsb edir.

**İşin aprobasiyası.** Dissertasiya Xəzər Universitetinin "Siyasi

elm və beynəlxalq münasibətlər" departamentində hazırlanmış, müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Tədqiqatın əsas məzmunu dissertantın ölkədə və xaricdə çap etdirdiyi məqalə və tezislərdə, beynəlxalq və respublika əhəmiyyətli konfranslarda, dəyirmi masa və elmi seminarlarda etdiyi çıxış və məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, nəzəri-praktiki əhəmiyyəti müəyyənləşdirilir, tədqiqatın mənbəşünaslıq bazası, işin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **"Azərbaycan - ABŞ münasibətlərinin konseptual əsasları"** adlı birinci fəslinin **"ABŞ-ın Cənubi Qafqaz və Azərbaycana yönəlmiş xarici siyasət doktrinaları və konsepsiyaları: mahiyyəti və əsas cəhətləri"** adlanan birinci yarımfəslində göstərilir ki, ABŞ-ın uzunmüddətli xarici siyasət kursunun formalaşdırılmasının əsası hələ XIX əsrin 20-ci illərində "Monro doktrinası"nın yaradılması ilə başlayaraq müasir dövrümüzə qədər davam etmişdir.

Tədqiqat işində qeyd olunur ki, ABŞ-ın milli maraqları qlobal xarakteri ilə fərqlənir. SSRİ-nin dağılması isə bu maraqların reallaşdırılmasını daha da asanlaşdıraraq bütün sahələrdə ABŞ-ın təsirinin artmasına şərait yaratdı. XX əsrin 90-cı illərində ABŞ-ın xarici siyasət nəzəriyyəçilərindən F.C.Terner "hərəkətli sərhədlər" nəzəriyyəsi C.Buş, B.Klinton, oğul C.Buş administrasiyası tərəfindən hazırlanan xarici siyasət konsepsiyalarında əsas yerləri tutdu. "Demokratiyanın yayılması" strategiyası bu regionda ABŞ-ın təsirinin genişlənməsi və mövqeyinin möhkəmlənməsinə xidmət edirdi. Klinton administrasiyası "yeni dünya düzümü" konsepsiyasına bir sıra dəyişikliklər etsə də, keçmiş SSRİ məkanına yönəlmiş istiqaməti yenə də qüvvədə saxladı. Qeyd etmək lazımdır ki, məhz B.Klinton administrasiyasının hakimiyyəti dövründə ABŞ-ın Qafqaz siyasəti çox aktivləşmiş və konkret addımlar atılmağa başlanmışdır. ABŞ-ın Qafqaz siyasətinin fəal mərhələsi isə 2001-ci il 11 sentyabr hadisələrindən sonrakı dönəmi hesab edirlər.

Beləliklə, tədqiqat işində nəzərə çatdırılır ki, Qafqaz siyasəti ABŞ-ın

ən mühüm siyasi xətlərindən biri olub, ABŞ xarici siyasətinin formalaşmasında mühüm rol oynayır. ABŞ-ın Qafqaz siyasətinin təhlili Qafqaz regionunun ABŞ üçün əhəmiyyətini üzə çıxarır.

Dissertasiyanın birinci fəslinin **"Azərbaycanın xarici siyasət kursunda ABŞ-ın yeri və rolu"** adlanan ikinci yarımfəslində göstərilir ki, Azərbaycanın xarici siyasət kursunun başlıca vəzifəsi ölkənin müstəqilliyini və suverenliyini təmin etmək idi. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu istiqamətdə işlər daha da genişləndirildi. Azərbaycan Respublikasının xarici siyasəti, ilk növbədə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edirdi.

Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan Respublikasının xarici siyasət strategiyasının prioritet istiqamətləri sırasında ABŞ-la ikitərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsi mühüm yer tutur. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müstəqil dövlətimizin ABŞ-a yönələn xarici siyasət xətti məqsədyönlü xarakter aldı və daha ardıcıl surətdə həyata keçirilməyə başladı. ABŞ kimi fövqəldövləti Azərbaycana, onun düçar olduğu problemlərə, regionda baş verən siyasi və münaqişəli məsələlərə cəlb etmək Azərbaycanın xarici siyasət kursunun əsas hədəflərindən idi. Görülən məqsədyönlü işlər tezliklə iki ölkə arasındakı münasibətlərin yaxşılaşmasına müsbət təsirini göstərdi. Bu dövrdən başlayaraq Azərbaycanın xarici siyasəti, o cümlədən ABŞ ilə münasibətləri yeni mərhələyə qədəm qoydu.

1994-cü ilin ortalarından başlayaraq həyata keçirilən tədbirlər nəticəsində ABŞ-da Dağlıq Qarabağ və Azərbaycan haqqında əsl həqiqətlər geniş ictimaiyyət tərəfindən dərk edilməyə başlanmışdır. Bu illərdə Azərbaycan diplomatiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini aça bilmiş, amerikalılara Azərbaycanla hərtərəfli əlaqələrin əhəmiyyətini anlatmış, ölkəyə qarşı Konqresin qəbul etdiyi 907-ci düzəlişi aradan götürməyə çağırmışdır.

Enerji sahəsində əməkdaşlığın sağlam təməllər üzərində qurulması Azərbaycan-ABŞ əlaqələrinə xüsusi təkan vermiş, həyata keçirilən məqsədyönlü uğurlu siyasət Azərbaycanı ABŞ-ın iqtisadi tərəfdaşı etmişdir. Azərbaycanın xarici siyasəti qarşısında qoyulmuş vəzifələr müvəffəqiyyətlə həyata keçirilmiş və bu sahədə nəzərdə tutulan məqsədlərə əsasən nail olunmuşdu.

Tədqiqat işinin **"Azərbaycan- ABŞ münasibətləri: siyasi əlaqələrin yaranması və əsas istiqamətləri"** adlanan ikinci fəslinin **"Müstəqilliyin əldə edilməsi dövründə Azərbaycan Respublikasına münasibətdə ABŞ-ın xarici siyasəti"** adlı ikinci yarımfəslində qeyd edilir ki, ABŞ-

la Azərbaycan arasında ilk diplomatik münasibətlərin qurulması AXC dövrünə təsadüf edir.

Müasir dövrdə isə 1991-ci ildə ABŞ Azərbaycan Respublikasının müstəqilliyini tanımış, 1992-ci il 18 martdan etibarən isə iki dövlət arasında diplomatik əlaqələr qurulmuşdur. Ölkə daxilində isə vəziyyətin gərgin olaraq qalması, Qarabağ müharibəsində olan döyüşlər, həmçinin hakimiyyət uğrunda daxili çəkişmələr xarici siyasətdə də uğursuzluqlara gətirib çıxarırdı. Məhz onların nəticəsində ABŞ 24 oktyabr 1992-ci ildə "907-ci maddə"ni qəbul etdi ki, bu, mahiyyətcə Azərbaycanı ABŞ-ın hər cür yardımından məhrum etmək demək idi. Bu yarımfəsildə vurğulanır ki, Azərbaycan hökuməti bu dövrdə, münasibətlərin belə çətin bir vaxtında ABŞ-la qarşıya çıxan anlaşılmazlıqları həll etmək üçün bir çox addımlar atdı ki, bu yaxın gələcəkdə Azərbaycan reallıqlarının ABŞ-da tanınmasına imkanlar açdı. Azərbaycan Respublikasının xarici siyasətində əsas məsələ kimi müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunması məsələsi ən mühüm amilə çevrildi. 1993-cü ilin II yarısından başlayaraq ABŞ-Azərbaycan münasibətlərində müəyyən canlanma yaranır, ABŞ-ın Azərbaycana olan diqqəti artmağa başlayırdı. Fikrimizcə, bu dövrü Azərbaycanın öz məqsədyönlü xarici siyasət xəttini müəyyənləşdirməsi, xarici dövlətlərlə konkret maraqlar çərçivəsində münasibətlərin qurulması ili kimi də qəbul etmək olar. Çünki məhz 1993-cü ildə ABŞ Azərbaycan Respublikası ilə həm iqtisadi, həm də siyasi sahədə münasibətlərini yeni kontekstdə qurmağa başlamış və gələcək siyasi münasibətlərin cizgiləri müəyyənləşmişdir. Ümummilli lider Heydər Əliyev iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsi məqsədilə bir sıra addımlar atmağa başlamışdır.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli **"1995 – 2001-ci illər dönəmində Azərbaycan-ABŞ münasibətlərinin siyasi-diplomatik aspektləri"** adlanır. Bu yarımfəsildə göstərilir ki, artıq 1995-ci ildən etibarən ABŞ-la Azərbaycan arasında istər iqtisadi-siyasi, istərsə də humanitar və digər sahələrdə əlaqələr yaranmağa başladı. Bu dövrdə əsas problemli məsələlər "907-ci düzəlişin" ləğvi, Qarabağ münaqişəsinin ədalətli həlli, neftin Avropaya çatdırılması istiqamətlərinin müəyyənləşdirilməsi, strateji tərəfdaşlığın artırılması yollarının tapılması məsələləri olmuşdur.

Bu dövrdə ABŞ-ın Azərbaycana münasibətində isə əsas məqsədləri kimi aşağıdakıları göstərmək olar:

- demokratiyanın təşviqi və azad bazar iqtisadiyyatının yaradılması;
- region ölkələri arasında sülh və əməkdaşlığın bərqərar edilməsi;
- bu dövlətlərin geniş dünya birliyinə inteqrasiyasına yardım etmək.

Bu yarımfəsildə göstərilir ki, 1995-2000-ci illər çərçivəsində aparılan danışıqlar və Ümummilli lider tərəfindən həyata keçirilən müdrik və məqsədyönlü siyasət nəticəsində Azərbaycan-ABŞ münasibətləri yeni keyfiyyət aldı.

Dissertasiya işinin ikinci fəslinin üçüncü yarımfəsli " **Azərbaycan–ABŞ münasibətlərinin yeni dövrü: əsas amillər və müasir çağırışlar"** adlanır. Bu yarımfəsildə qeyd olunur ki, 2001-ci ildə Azərbaycan- ABŞ münasibətlərində yeni keyfiyyət dəyişiklikləri özünü göstərməyə başladı. 2001-ci il 11 sentyabr terror aktından sonra Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələ başladı. Belə ki, əlaqələrdəki məhdudiyyətlər aradan qaldırıldı; humanitar sahədə demokratikləşmə məsələlərində, sərhədlərin təhlükəsizliyinə hökumət yardımı artırıldı; Xəzər dənizinin karbohidrogen ehtiyatlarının daşınması, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq gücləndi; ABŞ-ın Əfqanıstanda və İraqda apardığı əməliyyatlarda öz hava məkanını ABŞ hərbçilərinin öhdəsinə verdi.

Bütün region ölkələri kimi Azərbaycan da ABŞ-ın strateji maraqlarını və siyasətini əks etdirən NATO ilə əməkdaşlıq edir.

Artıq 2001-2005-ci illərdə Azərbaycan ABŞ əlaqələri çoxtərəfli xarakter almış və daha çox istqamətli olması ilə digər illərdən fərqlənmişdir.

2007-2009-cu illər ikitərəfli münasibətləri yenə də əvvəlki inkişaf tempi ilə davam edərək müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsi ilə əlamətdar oldu. Bu dövrdə hərbi, iqtisadi sahələrdə olan əlaqələr daha da möhkəmləndi.

2013-cü ildə Rusiya-Ukraynaya münasibətləri, Suriya hadisələri, digər tərəfdən Avropanın enerji təhlükəsizliyində Azərbaycanın artan rolu ABŞ-ın Azərbaycana olan münasibətlərində irəliləyiş yaratmışdır. Elə bu səbəblərdən 2016-cı il martın 31-də Vaşinqtonda keçirilən Nüvə Sammitinə prezident İlham Əliyev dəvət olunmuşdur. Bu səfəri ABŞ-ın Azərbaycandakı səfiri iki dövlət arasındakı münasibətlərdə dönüş nöqtəsi adlandırmışdır[20]. Səfər dövründə Azərbaycan Respublikasının prezidenti, ABŞ-da bu ölkənin ali dövlət rəsmiləri ilə, prezident, vitse-prezident, dövlət katibi, eləcə də bu ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayan şəxsləri və yəhudi lobbisi ilə məhsuldar görüşlər keçirtmişdir[21].

Beləliklə, 2009-2016-cı illər Azərbaycan-ABŞ münasibətlərində müəyyən soyuqlaşma baş versə də, yekun olaraq münasibətlər yenidən

---

[20] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)// Məqalələr toplusu. Bakı: "Poliriat" MMC, 2017, s.395.

[21] https://azeri.azerbaijan.usembassu.qov/upleads/imaqes/Burun.Az.pdf

tənzimlənmiş və hər iki dövlət siyasi, hərbi, iqtisadi tərəfdaş kimi öz fəaliyyətlərini davam etdirmişdirlər.

Dissertasiyanın üçüncü fəsli **“Azərbaycan-ABŞ munasibətləri: çoxtərəfli əməkdaşlıq və inkişafın mühüm aspektləri”** adlanır. Həmin fəslin **“Azərbaycan Respublikası ilə ABŞ arasında iqtisadi əlaqələrin əsas istiqamətləri”** adlanan birinci yarımfəslində vurğulanır ki, müasir dövrdə Azərbaycan Tramp administrasiyası tərəfindən ABŞ üçün investisiya yatırımlarının qoyulması baxımından əlverişli bir məkan, həmçinin Avropanın enerji təhlükəsizliyində etibarlı bir əməkdaş kimi qiymətləndirilir. Tramp administrasiyası dövründə iki dövlət arasındakı münasibətlərdə yaxınlaşma üçün geniş perspektivlər açılır. Bu perspektivlər aşağıdakılardır:

- ABŞ-ın antirus və antiiran siyasəti Cənubi Qafqazda ABŞ mövqelərinin möhkəmlənməsi uğrunda mübarizəsinin güclənəcəyi ehtimalını verir.
- Avropanın enerji təhlükəsizliyi baxımından Azərbaycanın mühüm rol oynaması faktı ABŞ tərəfindən yüksək qiymətləndirilir;
- ABŞ-İsrail münasibətlərinin yaxınlaşması, bilavasitə Azərbaycanla əlaqələrin möhkəmləndirilməsinə yol açır;
- Regional konfliktlərin həllində Trampın daha konstruktiv mövqe tutması Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həllini mümkün edir;
- Azərbaycanın tolerant bir dövlət kimi ABŞ tərəfindən qiymətləndirilməsi Trampın ksenofobik bəyanatlarının ölkəyə aid edilməməsini şərtləndirir;
- Trampın məktubları göstərdi ki, Ağ ev Azərbaycanı müstəqil milli dövlət kimi qəbul edir və onun xarici siyasət maraqlarını nəzərə alır;
- Tramp Azərbaycanı təhlükəsiz, dinamik inkişaf edən ölkə kimi dəyərləndirir;
- Azərbaycan Tramp administrasiyası tərəfindən ABŞ üçün investisiya yatırımlarının qoyulması baxımından əlverişli bir məkan, həmçinin Avropanın enerji təhlükəsizliyində etibarlı bir əməkdaş kimi qiymətləndirilir;

D.Trampın erməni lobbisi ilə əlaqələrinin olmaması bu diasporanın təsirini azaldacağı və ABŞ-da anti-Azərbaycan qüvvələrin fəaliyyətinin zəifləyəcəyini göstərir.

Beləliklə, ABŞ-Azərbaycan münasibətləri daima dinamik inkişafda olub iki dövlət arasında əməkdaşlığın daha da artması istiqamətinə yönəlmişdir.

Dissertasiyanın üçüncü fəslinin **“Azərbaycan Respublikası ilə ABŞ arasında hərbi-strateji əməkdaşlıq”** adlanan üçüncü yarımfəslində

göstərilir ki, Azərbaycan-Amerika münasibətlərinin təməl əsaslarından biri də regional təhlükəsizlik sahəsində qarşılıqlı əməkdaşlıqdır. Prezident Heydər Əliyev 4 may 1994-cü ildə Brüsseldə Azərbaycanın suveren bir dövlət kimi NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirakına imza atdı. Keçən müddətdə Azərbaycan öz təhlükəsizlik taleyini Şimali Atlantika bloku ilə bağlamamaq şərti ilə, ABŞ-ın bəhs olunan dövrdəki fəal regional təhlükəsizlik siyasətinə, beynəlxalq və regional sülhyaratma təşəbbüslərinə, hərbi və siyasi tərəfdaşlıq çağırışlarına hərtərəfli dəstək vermiş, ABŞ və NATO ilə "Sülh naminə tərəfdaşlıq" və "Fərdi tərəfdaşlıq" proqramları çərçivəsində ikitərəfli və çoxtərəfli hərbi-strateji əməkdaşlığı gücləndirmiş, Əfqanıstana və İraqa ABŞ və NATO təyyarələrinin sərbəst uçuşu üçün hərbi hava dəhlizi açmış, ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizə koalisiyasına qoşularaq, onunla birlikdə dünyanın ayrı-ayrı münaqişə bölgələrində sülhyaratma proseslərində iştirak etmişdir. ABŞ-ın dəstəyi ilə Azərbaycanda energetika sektorunda irimiqyaslı, dünya üçün əhəmiyyətli layihələrin həyata keçirildiyini, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinin uğurla davam etdirilməsində Vaşinqtonun xüsusi dəstəyini vurğulamışdır" [22].

2016-cı il martın 31-də ABŞ-a işgüzar səfər edən Azərbaycan Respublikasının Prezidenti bu ölkənin dövlət katibi Con Kerri, vitse-prezident Co Bayden, ictimai xadimlər və şirkət rəhbərləri ilə görüşüb. ABŞ dövlət katibi Con Kerri ilə görüşdə mətbuat üçün verdiyi bəyanatında Prezident İlham Əliyev qeyd etmişdi ki, artıq 25 illik tarixi olan ABŞ-Azərbaycan münasibətləri həmişə sıx, səmimi olub, indi isə strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə çatmışdır (IV Nüvə Təhlükəsizliyi Sammitində çıxış edən Prezident İlham Əliyev diqqəti Ermənistanın Azərbaycana hərbi təcavüzünə, Ermənistanın beynəlxalq hüquqa əməl etmədiyinə və BMT-nin qərarlarına məhəl qoymadığına, qonşu ölkədəki köhnəlmiş atom elektrik stansiyasının region və dünya üçün təhlükə mənbəyi olduğuna cəlb edib. Bu səfər zamanı Azərbaycan-ABŞmünasibətləri əsasən üç məsələ ətrafında mərkəzləşdi: ABŞ terrorizmlə mübarizədə Azərbaycanı ciddi tərəfdaş hesab etdi, fövqəldövlətdə Prezident İlham Əliyevin liderliyi yüksək qiymətləndirildi, Azərbaycan-ABŞ münasibətlərinin İlham Əliyevin prezidentliyi dövründə təməlləri daha da möhkəmləndi, siyasi, iqtisadi, hərbi, mədəni sahələrdə sazişlər bağlandı. Beləliklə, hər iki dövlət arasında münasibətlər yeni inkişaf mərhələsinə

---

[22] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)// Məqalələr toplusu. Bakı: "Poliriat" MMC, 2017, s.381.

qədəm qoydu.

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli **“Azərbaycan Respublikası ABŞ münasibətlərində humanitar yardım siyasəti və onun əsas xüsusiyyətləri”** adlanır. Həmin yarımfəsildə göstərilir ki, Azərbaycan Respublikası ilə ABŞ arasındakı münasibətlər humanitar sahədə bağlanmış sazişlərlə tənzimlənir. ABŞ-ın təhsil və mübadilə proqramları ACTR/ACCELS (Təhsil və Dillər Öyrənilməsi üzrə Amerika əməkdaşlıq Şurası/Beynəlxalq Təhsil üzrə Amerika Şuraları), İREX (Beynəlxalq Tədqiqatlar və Mübadilələr üzrə Şura), Projekt Harmony kimi qeyri-hökumət təşkilatları və Beynəlxalq sülh korpusu tərəfindən idarə olunmuşdur. 2001-ci ildə ACCELS-lə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığa dair saziş imzalanmışdır. Sazişə əsasən çoxsaylı mübadilə proqramları həyata keçirilmişdir. Təhsil sahəsində Fulbright proqramı mühüm yer tutur. Proqram biznes və maliyyə, iqtisadiyyat, kitabxanaçılıq, siyasi elmlər, biznesin idarə olunması, kompüter sistemləri, təhsilin idarə olunması, biologiya və ətraf mühit elmləri, ictimai idarəetmə, sosiologiya, antropologiya, kimya, riyaziyyat, o cümlədən incəsənətin müxtəlif sahələrini əhatə edən 48 istiqamət üzrə ixtisaslaşmış mütəxəssislərə qarşı tərəfin ali məktəblərində tədqiqat aparmaq üçün geniş imkanlar açır[23]. Qeyd etmək lazımdır ki, indiyədək ACCELS, İREX təşkilatlarının həyata keçirdiyi və ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən təhsil mübadilə proqramları çərçivəsində artıq 2500-dən artıq Azərbaycan vətəndaşı ABŞ-da təhsil almış, tədqiqatlar aparmış, yaxud ixtisasartırmadan keçmişdir[24].

Azərbaycan Respublikasının Prezidentinə ünvanlanan məktublarda son 25 il ərzində Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın birgə qurduğu tərəfdaşlığı yüksək qiymətləndirdiyini və bu tərəfdaşlığın davamlı inkişafını arzuladığını vurğulayan ABŞ Prezidenti Donald Tramp Azərbaycanı Birləşmiş Ştatların dəyərli tərəfdaşı hesab etdiyini bildirib. Bununla yanaşı, qeyd edilib ki, rəsmi Vaşinqton Prezident İlham Əliyevin Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və islahatların həyata keçirilməsi istiqamətində gördüyü işləri dəstəkləyir və alqışlayır, eləcə də xalqlarımızın rifahına xidmət edən digər əməkdaşlıq sahələrinin də araşdırılmasını arzulayır. Beləliklə, ABŞ-Azərbaycan münasibətlərində Qərbin ən qüdrətli dövlətinin ölkəmizdə maraqları və respublikamızın dünya siyasətində oynadığı rol əsas yer tutur.

Dissertasiyanın üçüncü fəslinin dördüncü yarımfəsli **“Ermənistan-**

---

[23] newtimes.az/relation/4880/

[24] http://az president.az/s.28..

**Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ABŞ amili"** adlanır. Həmin yarımfəsildə göstərilir ki, Ermənistanın əsassız ərazi iddiaları və hərbi təcavüzü nəticəsində meydana gələn Dağlıq Qarabağ münaqişəsinin həlli bir çox aparıcı dünya dövlətlərinin, o cümlədən ABŞ-ın diqqət mərkəzində olan məsələdir.

Bu yarımfəsildə qeyd edilir ki, 1997-ci ildə Minsk qrupuna həmsədrlərdən biri kimi təyin olunan ABŞ digər həmsədrlərlə birlikdə münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin mərhələli həllindən ibarət idi.1998-ci il noyabrın 9-da ABŞ və Minsk qrupunun digər həmsədrləri "ümumi dövlət" ideyasına əsaslanan üçüncü təklif irəli sürdü. Bu təklif Azərbaycanın mənafeyinə zidd olduğu üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən rədd edildi.

1994-cü ildən ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində iştirakında yeni mərhələ başladı. Azərbaycan NATO ilə əməkdaşlığı genişləndirmək üçün " Sülh naminə tərəfdaşlıq" layihəsinə qoşuldu.

1994-cü il mayın 11-də ABŞ Konqresi Bilbreyn layihəsini nəzərdən keçirərək 247-ci qətnaməni qəbul etdi, "Kerri düzəlişi" qüvvədə qalsa da ABŞ hökumətinə yardım göstərməyə səs verildi. Ermənistan ilk dəfə olaraq "münaqişə iştirakçısı" kimi göstərildi. Qarabağ münaqişəsinin həllində ABŞ-ın rolu fəallaşdı. Prezident B.Klintonun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə ünvanladığı 1996-cı il 8 noyabr tarixli məktubda Amerika Prezidenti Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə dəstəklədiyini göstərdi. Ki-Uest görüşlərinə ciddi yanaşan ABŞ Dövlət Departamenti Minsk qrupunun fəailiyyətinə münaqişənin tarixinə və Qarabağ sülh prosesinə həsr olunmuş məlumat kitabları nəşr etdirdi, heç bir yerdə "Dağlıq Qarabağ Respublikası" termini işlətmədi.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair "Praqa prosesi" və "Madrid prosesləri" də nəticəsiz qaldı. Tədqiqatçılar 2012-2016-cı illəri "nəticəsiz danışıqlar və hərbiləşmə prosesi" adlandırırlar[25].

Beləliklə, ABŞ da bütün Qərb ölkələri kimi Dağlıq Qarabağ münaqişəsinin həllinə ikili standartlardan yanaşır. Hətta bəzi hallarda ABŞ Azərbaycanın ərazi bütövlüyünün əleyhinə də səs vermişdir. Bütövlükdə

---

[25] Paşayeva Q. Kamal Makulu-Əliyev. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətin əsas prioriteti kimi:// Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)// Məqalələr toplusu. Bakı: "Poliriat" MMC, 2017, s.74.

ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyi bir çox hallarda Azərbaycana qarşıdır.

Tədqiqat işində alınan başlıca nəticə Azərbaycan Respublikası-ABŞ münasibətlərinin siyasi aspektlərinin həm mahiyyəti, həm də müasir əhəmiyyəti və aktuallığından ibarətdir. Burada tədqiq olunan mövzu ilə bağlı sistemləşdirmə və ümumiləşdirmələr aparılmış, iki dövlət arasındakı münasibətlərin əsas məqam və prioritetli istiqamətləri qeyd edilmişdir. Dissertasiyanın sonunda tədqiqata yekun vurulur və əldə olunmuş nəticə və qənaətlər ümumiləşdirilir.

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı çap olunmuş məqalələrində öz əksini tapmışdır.**

1. 1995-2001-ci illər dönəmində ABŞ-la Azərbaycan Respublikası arasında siyasi-diplomatik münasibətlər. //Bakı Slavyan Universiteti Elmi Əsərlər - İSSN 2309-3277), Bakı, 2017, s.3-9. 6 s
2. Müstəqilliyin ilk dövrlərində ABŞ – Azərbaycan münasibətləri. //Elmi əsərlər, N 2 ( 29) İSSN 2219-9810) , Bakı, 2017, s. 243-249. 7 s
3. Azərbaycanın xarici siyasətində prioritet istiqamətlər. //Tarix və onun problemləri (2) İSSN 1047) ), Bakı, 2017, s. 265-271. 6s
4. Azərbaycan –ABŞ münasibətləri: humanitar və iqtisadi əlaqələr. // Geo Strategiya N3 (39) May – İyun, Bakı, 2017, s.59- 61. 3.s
5. Corc Buş və Bill Klinton administrasiyası dövründə ABŞ-ın Qafqaz siyasətinin doktrinal əsasları. //Strateji təhlil jurnalı. Bakı, 2018, s.425-435. 8 s.
6. İn the American –Azerbaijan Relations. The activities of Azerbaijani and Armenian Lobby. Modern scientific research. Proceedings of XVII International scientific conference, 23 mart 2018. Lulu press. Morrisville, United States, page 195-197, p. 6
7 . The perspectives and aspects of military economy relations between Azerbaijan and U.S. //Международная научно-практическая конференция. Киев, 20-21 октября 2017, с.98-102. 5.с
8. Oil strategy of the United States// «Гілея: науковий вісник», 103 (12), ISSN 2076-1554. Kiev, 2016, p.402.407 6. p
9. United States policy in South Caucasus// «Гілея: науковий вісник» 105 (2 ISSN 2076-1554 Kiev, 2016, p.395-398. 4.p

**Шахрияр Агамирза оглу Мамедов**

# Взаимоотношения Азербайджанской Республики с США: политический анализ

## Резюме

Во введении диссертации обоснована актуальность темы, изучена степень ее разработаности, определены объект, предмет, цель и задачи исследования, его теоретико методологические основы, научная новизна, теоретическое и практическое значение работы дана информация об апробации и структуре.

В первой главе диссертации –«Концептуальные основы отношений между Азербайджаном США и» были рассмотрены доктрины и концепции внешней политики США, направленные на Южный Кавказ и Азербайджан, а также роль и место США во внешнеполитическом курсе Азербайджанской Республики.

Во второй главе исследования –«Отношения между иАзербайджаном и США: создание политических отношений и основные направления» были исследованы внешняя политика США в отношении независимой Азербайджанской Республики, политико-дипломатические аспекты американских-азербайджанских отношений в 1995-2001 годах, в также новый этап отношений между Азербайджаном и США.

В третьей главе диссертации под названием «Отношения между Азербайджаном и США: многостороннее сотрудничество» были изучены такие вопросы, как экономические отношения между США и Азербайджанской Республикой, военно-страте ги ческое сотрудничество между двумя странами, роль США в демократизации Азербайджана и урегулировании армяно-азербайджанского, нагорно-карабахскогоконфликта.

В Заключении исследования обобщены основные поло жения диссертации, сформулированы соответствующие предло же ния и рекомендации, имеющие теоретический основы

**Shahriyar Aghamirza Mammadov**

## Political analysis: relations between Azerbaijan and the United States

### Summary

The "Introduction" section of the thesis engulfs substantiated relevance of the topic, analysis of its development, the goals and objectives of the study, its purpose and matter, scientific regency, methodology, practical significance, theoretical bases, information on the approbation and structure of the work.

The first chapter of the thesis "Conceptual Foundations of the US-Azerbaijan relations" examined doctrines and concepts of the US foreign policy aimed at the South Caucasus and Azerbaijan, as well as the role and position of the United States in the foreign policy path of Azerbaijan.

In the second chapter of the study, namely "The US-Azerbaijan relations: from conversance to cooperation", comprise investigation of the US foreign policy towards an independent Azerbaijan Republic, political and diplomatic aspects of the US-Azerbaijani relations in 1995-2001 and modern age relations between the US and Azerbaijan.

Issues such as economic relations between the United States of America and the Republic of Azerbaijan, military-strategic cooperation, the US humanitarian assistance program and its role in the democratization of Azerbaijan, the US factor in settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict were researched in the third chapter of the thesis, entitled "The US-Azerbaijan Relations: Multilateral Cooperation".

The main provisions of the dissertation were summarized and the corresponding proposals and recommendations were given in the section "Conclusion" of the study.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti, 115

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

***На правах рукописи***

**ШАХРИЯР АГАМИРЗА ОГЛУ МАМЕДОВ**

# ВЗАИМООТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С США: ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ

**Специальность: 5901.01 – «Международные отношения»**

**АВТОРЕФЕРАТ**

**Диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**БАКУ - 2018**